Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Biz Azərbaycan könüllüləriyik

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu münasibətlə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün metodik vəsait hazırlanmışdır.**

**Bakı-2020**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Biz Azərbaycan könüllüləriyik**: 2020-ci ilin Könüllülər ili ilə əlaqədar mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 42 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Sərəncam

Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında sərəncam imzalayıb. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formasıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllülüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

## Tərtibçidən

Könüllülük, birlikdə həyatın çoxşaxəli bir hissəsini təşkil edən maraqlı bir təcrübə, yeni tanışlıqlar, parlaq anlardır. Kitabxana könüllüsü olmaq, uşaqlar üçün nağılların gerçəkləşməsinə kömək etmək, fiziki qüsurlu və yaşlılara kitabxana xidmətləri göstərmək, istifadəçilərə yeni texnologiyaları öyrətmək, bir sözlə kitabxanaya olan sevgini başqaları ilə bölüşmək, yeni dostlar və təcrübə qazanmaqdır. Könüllülərin, xüsusən də gənclərin kitabxanaya cəlb olunması kitabxana könüllülüyü sahəsində könüllü təşəbbüslərin inkişafına töhvə vermək, kitabxanadakı könüllülərin sayını artırmaqla yanaşı, həm də gənclərə özünü cəmiyyətə yararlı bir şəxsiyyət kimi hiss etmək, özünü inkişaf etdirmək, təcrübə toplamaq, müxtəlif insanlarla tanış olmaqla yeni dostlar qazanmaq, vaxtını səmərəli keçirmək və digər üstün keyfiyyətlər qazandırar. Könüllülər kitabxana işinə yeni bir baxış, kreativ və yaradıcı fikirlər gətirə bilər. Kitabxanada könüllülərin əməyindən səmərəli bəhrələnmə bütövlükdə kitabxana xidmətinin təşkilinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Bu vəsaitdə könüllülər ili, könüllü və könüllülük haqqında, könüllülər hərəkatının tarixi, könüllülərin fəaliyyəti barədə məlumatlar və kitabxanada könüllülərin köməyi ilə həyata keçirilən layihələr haqqında məlumat verilir. Vəsaitdə eyni zamanda bu işin təşkili ilə əlaqədar kitabxanaçılar üçün metodik tövsiyələr və könüllülərin əməyindən istifadə imkanlarının istiqamətləri barədə təkliflər öz əksini tapmışdır. “Könüllülər ili” ilə əlaqədar hazırlanan metodiki tövsiyədə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlər haqqında məlumat da öz əksini tapmışdır.

# Giriş

Azərbaycanda könüllülük hərəkatının tarixi hələ Xürrəmilər dövründən başlayıb. Babək Azərbaycanı yadelli işğalçılardan qorumaq üçün xalqa müraciət edərək ətrafına toplaşan könüllülərlə torpaqlarımızın işğalına qarşı mübarizə aparmışdır. XX əsrin ikinci yarısından etibarən könüllülük, həmrəylik, sosial məsuliyyət kimi ali dəyərlər sistemləşdirilərək dünyada kütləvi sosial fəaliyyətə çevrilib.
Beynəlxalq Könüllülər Günü 1985-ci ildən etibarən hər il dekabrın 5-də BMT Baş Məclisinin qərarı ilə qeyd olunur.
BMT Baş Assambleyasının qərarı ilə 2001-ci il beynəlxalq könüllülük ili elan edildi və 10 il sonra Avropa Komissiyasının qərarı ilə 2011-ci il il rəsmi olaraq Avropada Könüllülük İli elan edildi. Beləliklə, BMT könüllülər hərəkatının əhəmiyyətini tanıdı və dünyanın bütün ölkələrini ona dəstək tədbirləri həyata keçirməyə çağırdı.

Müasir Azərbaycanda isə könüllülük sahəsində inkişaf məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Belə ki, 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlayıb. Həmin proqram əsas götürülərək, 1998-2000-ci illərdən ölkədə könüllülük prinsipləri geniş təbliğ edilib. XXI əsrin əvvəllərində Prezident İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə ölkəmizin tarixinin dinamik və hərtərəfli inkişaf mərhələsi başlayıb. Ölkə başçısının reallaşdırdığı siyasətin əsas məqsədlərindən biri neft kapitalının insan kapitalına çevrilməsi idi. Bu zaman qarşıya qoyulan məqsədləri gerçəkləşdirmək üçün innovativ və geniş kütlənin maraqlarına cavab verən yeni addımlara ehtiyac yaranmışdı və təbii ki, bu sahədə könüllülük fəaliyyəti mühüm

önəm daşımağa başladı. Məhz bu dövrdə - 2009-cu ildə Milli Məclisin "Könüllü fəaliyyət haqqında" Qanun qəbul etməsi Azərbaycanda könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Məhz Azərbaycan Prezidentinin bu sahəyə yüksək diqqət və qayğısı və fəal dəstəyi könüllülüyün bugünkü yüksək inkişaf səviyyəsinə çatmasını təmin etməklə yanaşı, gənclər üçün yeni fürsətlər yaradıb. Xüsusilə son illərdə Azərbaycanın yüksək səviyyədə ev sahibliyi etdiyi "Eurovision-2012" mahnı müsabiqəsi, 2015-ci ildə birinci Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları və digər mötəbər beynəlxalq tədbirlərin təşkilinə ümumilikdə on minlərlə könüllü cəlb olunub. Bu tədbirlərin keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq miqyasa çıxarılacaq böyük potensiala malik, eyni zamanda, təcrübəli könüllü bazası formalaşıb. Ölkəmizdə könüllülük hərəkatının inkişafında və bu sahədə qazanılan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolunu xüsusilə vurğulamaq lazımdır. Məhz Mehriban xanımın əzmkar fəaliyyəti nəticəsində qeyd olunan mötəbər tədbirlərdə on minlərlə könüllünün fəaliyyətinə şərait yaradıldı, könüllülərin əməyi yüksək qiymətləndirildi. Azərbaycan Prezidenti İlham Əliyev fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı nitqində könüllülərin ölkə həyatının bütün sahələrindəki fəallığına yüksək qiymət verərək deyib: "Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Mən bunu çox alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda, müxtəlif vəzifələrdə işləyir, xeyir

gətirir. Könüllülər hərəkatının xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır". Gənclərimizin potensialının, fəallığının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident İlham Əliyev onların iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında işləməsini, gəncləri dövlət təşkilatlarında önə çəkilməsini, bütün dövlət təşkilatlarına könüllülərin cəlb olunmasını tövsiyə edib. Bu tövsiyədən irəli gələrək müxtəlif dövlət qurumlarına könüllülərin cəlb olunmasına başlanılıb və bu iş uğurla davam etdirilir. Ölkəmizdə könüllülük hərəkatının inkişafında Gənclər Fondunun da fəaliyyəti xüsusi qeyd edilməlidir. Qrant müsabiqələri, xüsusi layihə, tədbir və düşərgələr yolu ilə könüllülüyün təşviqi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Ötən il Beynəlxalq Könüllülər Günü ərəfəsində Gənclər Fondu tərəfindən yüzlərlə gəncin və ölkəmizdə ilk dəfə olaraq bütün könüllü hərəkatlarının iştirak etdiyi "Azərbaycan həmrəylik festivalı" keçirilib. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ölkəmizdə könüllülük fəaliyyətinin inkişafına göstərdiyi yüksək diqqət və qayğı, bu sahədə əldə olunan nailiyyətlər və könüllülərin ölkəmizin inkişafında əvəzsiz xidmətləri qarşıdakı dövrdə daha böyük uğurların qazanılacağını deməyə ciddi əsas yaradır.

Sevindirici haldır ki, son illər könüllülüyün sürətlə inkişaf etdiyi Azərbaycan könüllülük fəaliyyətinin təbliğində və inkişafında özünəməxsus rol oynayır. Azərbaycanın müstəqilliyin bərpasından sonra qazandığı uğurlarda, şübhəsiz ki, könüllü gənclərin də payı var.

1990-cı ilin sentyabrında Parisdə Könüllülərin XI Ümumdünya Konfransında qəbul edilmiş Ümumdünya Könüllülük Bəyannaməsi könüllülüyün əsas prinsiplərini ifadə etdi:

- irqindən, inancından asılı olmayaraq bütün kişilər, qadınlar, uşaqlar üçün birləşmə hüququnun tanınması;

- bilik, fiziki xüsusiyyətləri, sosial və maddi vəziyyəti;

- bütün insanların ləyaqətinə və mədəniyyətinə hörmət;

- qarşılıqlı yardım və pulsuz xidmətlər göstərmək;

- barışıq, insanların təşəbbüsü və yaradıcılığını stimullaşdırmaq;

- məsuliyyət hissinin stimullaşdırılması, ailənin, kollektiv və beynəlxalq həmrəyliyin təşviqi.

Gənclər siyasətini prioritet istiqamət olaraq müəyyən etmiş, gənclərin hərtərəfli inkişafı, onların milli-mənəvi dəyərlərə sadiqlik və vətənpərvərlik ruhunda tərbiyəsi məsələsini daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Respublikamızda könüllülük hərəkatının genişləndirilməsi, dövlət qurumlarında könüllü qruplarının təsis edilməsi və dəstəklənməsi ilə bağlı çağırışları, son illərdə ölkəmizdə keçirilən irimiqyaslı beynəlxalq tədbirlərdə könüllülərin yaxından iştirak etməsi, müvafiq qanunvericilik bazasının yaradılması ölkəmizdə könüllülük hərəkatının geniş vüsət almasına şərait yaradıb. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif

sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir.

Bu fəaliyyət mədəniyyət sahəsində fəaliyyət göstərən kitabxanalardan da yan keçməmişdir. Ümumiyyətlə, könüllülərin kitabxanaların fəaliyyətinə cəlb edilməsi kitabxananın əhatə dairəsinin genişlənməsinin, maraqlı və genişmiqyaslı tədbirlərin keçirilməsinin, eləcə də kitabxananın həyata keçirdiyi sosial və kreativ yönümlü layihələrin uğurunun qarantıdır.

## Kitabxanada könüllülərlə iş

Könüllü hərəkatının əsasını dünya kimi köhnə prinsip təşkil edir: özünü bir insan kimi hiss etmək istəyirsən - başqasına kömək et .

*Şair, publisist Volter*

Könüllülər ölkəmizin ev sahibliyi etdiyi dünya miqyaslı beynəlxalq tədbirlərdə xüsusi ilə fərqlənirlər. Bu gün demək olar ki, hər bir sahədə fəal olaraq könüllü kömək təklif edən insanlarla rastlaşa bilərsiniz. Bu istiqamət mədəniyyət müəssisələrində, xüsusilə də kitabxanalarda inkişaf etməkdədir. Kitabxanalar regionda yaşayan əhalinin kitabxana ilə bağlı mütəmadi məlumatlandırılmasında, yeni oxucuların kitabxanaya cəlb olunmasında, ictimai tədbirlərin, aksiyaların, kitabxana proqramları və layihələrin təşkilində, məktəblilər və əhali arasında müxtəlif mövzular üzrə təbliğat işlərinin aparılmasında, istifadəçilər arasında rəy sorğularının keçirilməsində, kitabxanaya gələ bilməyən fiziki qüsurlu və yaşlı oxuculara qeyri-stasionar xidmətin göstərilməsində və

digər işlərin həyata keçirilməsində könüllülərin köməyindən faydalana bilərlər.

Könüllülərin, xüsusən də gənclərin kitabxanaya cəlb olunması kitabxana könüllülüyü sahəsində könüllü təşəbbüslərin inkişafına töhvə vermək, kitabxanadakı könüllülərin sayını artırmaqla yanaşı, həm də gənclərə özünü cəmiyyətə yararlı bir şəxsiyyət kimi hiss etmək, özünü inkişaf etdirmək, təcrübə toplamaq, müxtəlif insanlarla tanış olmaqla yeni dostlar qazanmaq, vaxtını səmərəli keçirmək və digər üstün keyfiyyətlər qazandıracaqdır. 13 yaşından yuxarı hər bir fəal şəxs könüllü olmaq imkanına malikdir. Bəzən isə azyaşlı uşaqlar da könüllü ola bilər. Bunun üçün isə ilk növbədə könüllü olmaq istəyənləri kitabxanaya cəlb etmək lazımdır. Kitabxanaya könüllülərin cəlb olunmasında **"Kitabxanamızın könüllüsü ol!"** adlı müsabiqə elan edə bilərsiniz. Müsabiqənin keçirilməsində əsas məqsəd kitabxanaçıya kömək etmək istəyən və kömək edə bilən insanları bir arada toplamaqdır. Könüllülərin seçimində müsahibə, anket, test və s. metodlardan istifadə etməniz tövsiyə olunur. Müsabiqənin şərtlərini müəyyən etdikdən sonra bununla bağlı kitabxananın saytında, sosial şəbəkələrdə, yerli qəzetlərdə elan yerləşdirə bilərsiniz. Kitabxananın fəaliyyətində könüllü köməkçilərin iştirakı, həmçinin kitabxanaların özləri üçün faydalı ola bilər. Buraya kitabxana məkanının genişləndirilməsi, oxucuların və kitabxanada keçirilən tədbirlərin sayında ciddi artımın olması, yerli sakinlərlə daha çox əlaqələrin qurulması və s. daxil etmək olar.

Kitabxanalarda könüllülərlə birgə layihələrin həyata keçirilməsi kitabxanaçıların işini nəzərəçarpacaq dərəcədə asanlaşdırmaqla yanaşı, eyni zamanda oxucular üçün də bu

tədbirləri daha cəlbedici edə bilər. Könüllü işində peşəsindən, gəlirindən və təhsil səviyyəsindən asılı olmayaraq həmişə əhalinin geniş təbəqəsi iştirak etmişdir. Könüllü hərəkatlara üzv olmaq dini, yaşı, irqi və cinsi məhdudiyyəti yoxdur. Vətəndaş cəmiyyətində könüllülük vətəndaşın insan ehtiyaclarının reallaşdırılmasına, sosial inkişafa və yeni iş yerlərinin açılmasına töhfə verən cəmiyyətlərdə fəal iştirak etmək üçün könüllü seçimdir. Vətəndaşlar üçün zəruri sosial xidmətlər göstərməklə könüllülərin sosial məsuliyyətli bir cəmiyyət qurmasına yönəldildiyini iddia etmək olar. Bu iş fədakarlıq, nəciblik, humanizm, mərhəmət və insanlıq üzərində qurulur.

**Karyera, özünü dərk etmək.** Könüllü olaraq işləmək, sosial vəziyyətini yaxşılaşdırmağa imkan verir, sosial cəhətdən əlaqələri qurmağa, yeni bacarıqlar əldə etməyə, faydalı şeylər öyrənməyə, təşkilatçılıq bacarıqlarını inkişaf etdirməyə və bununla cəmiyyətdə hörmət qazanmağa kömək edir.

**Yaradıcılıq imkanları.** Yaşınızdan və ya mövcud peşənizdən asılı olmayaraq müxtəlif fəaliyyət növlərində özünüzü sübut edə bilərsiniz - jurnalistika, tədris, idarəetmə, tamaşalar, ssenari, dizayn.

Könüllülərin işi çox vaxt qeyri-standart yanaşmalar və yeni imkanlar ilə əlaqələndirilir.

**Resurs xüsusiyyətləri.** Könüllü olaraq işləyərək insanlar əlaqəli faydalar - səyahət, maraqlı kitablar və filmlər, yeni bağlantılar, internet resursları və s. sahibi olurlar.

Könüllülük mövzusu gəncləri kitabxanalara cəlb etmək problemi ilə sıx bağlıdır.

***Gənclərin bu mövzuda yeni layihələri: mühazirələr, ustad dərsləri, təlimlər, qonaqlar.***

***"Mədəniyyət sahəsində gənc könüllülər" adlı şöbələrarası dəyirmi masa təşkil etmək olar.***

**Könüllülük fəaliyyəti müxtəlif sahələrdə ola bilər:**

Əlillərə, əhalinin aztəminatlı təbəqəsinə, qocalara, qaçqın və məcburi köçkünlərə kömək edilməsi;

Uşaqlar və gənclərlə işlərin aparılması;

Mədəni, tarixi sərvətlərin qorunması;

Ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın saxlanması;

İnsan hüquq və azadlıqlarının, qanunçuluğun, sülh mədəniyyətinin, tolerantlığın təbliği;

Könüllülər hərəkatı müxtəlif istiqamətlərdə inkişaf edir:

- Narkomaniya, alkoqolizm və HİV infeksiyasının qarşısının alınması və mübarizə;

- ehtiyacı olan təqaüdçülərə, yetimlərə və valideyn himayəsindən məhrum olan uşaqlara, ağır xəstələrə və əlillərə kömək etmək;

- tarixi mənəvi və memarlıq dəyərlərinin (obyekt və ərazilərin) qorunması və bərpası;

- ictimai əhəmiyyətli tədbirlərin (idman, elm, mədəniyyət);

- şəxsiyyətin maariflənməsi və mənəvi inkişafı, sağlam həyat tərzinin təşviqi;

- ətraf mühitin qorunması;

- Münaqişələrin və fəlakətlərin qurbanlarına həyati vacib şərtlərin itirilməsini kompensasiya etməklə yardım göstərmək.

**"Könüllülər Mərkəzi"**

Gənclər müəyyən layihələrin, tədbirlərin, festivalların və canlı tədbirlərin iştirakı və dəstəyi ilə əlaqəli mədəni və təhsil könüllüliyinə daha çox meyillidirlər. Bununla birlikdə, bu istiqamətin çox geniş perspektivləri var: bu, memarlıq abidələrinin bərpasına kömək etmək, kitabxana və muzey kolleksiyalarının doldurulmasının təşkilində işləmək, bələdçi turlar, turist qrupları və qonaqlar ilə işləmək. Bu xüsusilə böyük mədəniyyət və idman günlərində tələb olunur. Kitabxanalar bəzən hazırkı praktik köməyə ehtiyac duyurlar. Könüllülər məlumatlandırma, maarifləndirmə və axtarış fəaliyyətlərində iştirak edə bilərlər: anketlərin araşdırılması və işlənib hazırlanması, dəvətnamələrin göndərilməsi, reklam kitabxanasının materialları, borclu şəxslərin məlumatlandırılması, kitabxana tədbirlərinin təşkili və auditoriyasının yaradılması.

Könüllülərin şəhərin gənc, çoxuşaqlı ailələrinin evlərində informasiya və kitabxana xidmətləri göstərmələri də məqsədəuyğundur. Bunun üçün kitabxana, hər bir ailə ilə kitabxana xidmətlərinin göstərilməsi üçün müqavilə imzalayıb, böyük bir ailənin hər bir üzvünün maraq və üstünlüklərini nəzərə alan **"Ailə məlumat pasportu"** yaradır. Müqavilə bağlandıqdan sonra yeni oxucular kitabxananın veb saytında elektron sifariş edə bilir, bundan sonra könüllülər kitabları evlərinə təhvil verirlər.

Uşaq Kitabxanası tərəfindən isə uşaq evləri, sosial sığınacaq və sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri şagirdlərinə yönəlmiş yüksək səviyyəli oxu proqramlarının hazırlanması həyata keçirilə bilər.

**Gənc oxucuları kitablar vasitəsilə birləşdirək.**

Könüllülər tərəfindən kitabın ucadan oxusu:

Bunun üçün iki həftə ərzində hər kəsə kitab verilir. Aksiyada şəhərin bir neçə kitabxanası iştirak edir. Teatr studiyasının bədii rəhbəri uşaqları aktyorluq əsasları ilə tanış edir. Həyata keçirilən layihə kitabın tanıdılmasına, yazıçının mənəvi irsi ilə tanışlıq ənənələrinin inkişafına töhfə verir.

Aksiyanın adını **"Uşaqlar uşaqlara kitab oxuyur"** da adlandırmaq olar.

**"Mən könüllüyəm!" İnformasiya mərkəzi**

Mərkəz könüllülük sahəsində normativ sənədlər və təcrübə toplayıb, könüllülərin anketləri, müxtəlif layihələrdə və təqdimatlarda iştirak edən könüllülərin məlumat bazasını yaradır.

Bu layihənin məqsədləri aşağıdakılardır:

- “Mən Könüllüyəm!” informasiya kompleksinin daha da artırılması və yenilənməsi;

- Könüllülər Gününün aylıq keçirilməsi (məsləhətlər, təlimlər, könüllülərin interaktiv qeydiyyatı, könüllü kitablarının təhvili);

- Könüllü məsələlər üzrə kitabxananın ərazisində könüllü ictimai şəhər gənclər şurasının təşkili;

- Könüllülərə iş verən bu təşkilatların bankının yaradılması;

- Kitabxana oxucularına, o cümlədən əlilliyi olan uşaqlara kitabxana xidmətlərinin göstərilməsi üçün könüllü fəaliyyətin təşkili.

Fərdi bir şəxs üçün könüllü fəaliyyətlərdə iştirak özünü tanıda və özünü inkişaf etdirməyə kömək edir, gənclər üçün xüsusilə vacib olan yeni bilik və təcrübə əldə etmək imkanı yaradır. Könüllülər hərəkatı sosial reaksiya elementidir.

Uşaq kitabxanasının könüllüləri oxumaqda "tərbiyəçilər" rolunu da oynaya bilərlər. Bu tədbirlər sırasında könüllülər uşaqların və valideynlərinin kitab oxumağı dinlədikləri, film izlədikləri və oyunlarda iştirak edə biləcəyi görüşlər təşkil edirlər. Belə görüşlərin nəticəsi olaraq, ailənin 25% -i bu təşəbbüsün uşaqların dünyagörüşünün zənginləşməsində, söz ehtiyatının çoxalmasına, daxili mədəniyyətinin yüksəlməsinə səbəb olduğunu etiraf edirlər.

Könüllülərin iş sahələrindən biri də məlumat və biblioqrafik fəaliyyətdir. Burada ən populyar olan kitabxanaya gələnlər üçün könüllülər tərəfindən kompüter kurslarının keçirilməsidir. Həmçinin könüllülərin təşəbbüsü ilə uşaq kitabxanalarında oxucular arasında **"Kitab Limanı- Ailəvi mütaliə"** adlı tədbir də təşkil etmək olar.

**Kitabxanada "Beynəlxalq Başlanğıc"** adı altında layihə də həyata keçirmək olar. Məqsəd yaşlı insanların özünütərbiyəsi üçün şərait yaratmaq, sosial təcrid və tənhalığı aradan qaldırmaq, o cümlədən aktiv həyatda olmaqla

inkişafdır. Bu layihəni həyata keçirmək üçün aşağıdakı müddəalar nəzərə alınmalıdır:

-Yaşlı insanlara kompüter savadlılığının əsaslarını öyrətmək üçün Könüllüləri cəlb etmək;

- Könüllülərlə birlikdə yaşlılar üçün kompüter savadlılığı və İnternet resurslarından istifadə mövzularında praktik və nəzəri dərslər keçirilməsi;

-Kompüter texnologiyalarından səmərəli istifadə, şəxsiyyətlərarası ünsiyyət və uğurlu ictimailəşmə bacarıqlarını inkişaf etdirməyə yönəlmiş yaşlı insanlar üçün aktiv və faydalı istirahət təşkil etmək.

Bu layihənin həyata keçirilməsi nəticəsində çoxlu sayda təqaüdçü təlim alır. Yaşlı insanlar elektron poçt qutusu yaratmağı, internet vasitəsilə məktub göndərməyi, sosial şəbəkələrdə və proqramlarda ünsiyyət qurmağı öyrənirlər.

Bu proqramın icrası zamanı gənc könüllülər yeni texnologiyalara dair biliklərini tətbiq edirlər. Yetkin istifadəçilərə kompüteri mənimsəməyə kömək edir, naviqasiya kitabxana saytında necə işlədiyini göstərir və axtarış motorlarından və ya söz işləmə proqramlarından necə istifadə olunacağını öyrədir.

Kitabxanada könüllülər tərəfindən **"Mənim sevimli müəllifim"** layihəsinin də həyata keçirilməsi məqsədəuyğundur. Onun mahiyyəti müasir yerli müəlliflərin əsərləri ilə bağlı biblioqrafik siyahı, yaddaş tərtib etməkdir. Könüllülər yazıçı və şairlər haqqında məlumat toplayır, adlarının və əsərlərinin adlarının indeksini tərtib edirlər. Bu

göstəricilər kitabxana tərəfindən çap şəklində yayımlanır və internetdə hər kəs üçün əlçatan olur.

Bundan başqa Könüllülərin kitabxana araşdırmalarında fəal iştirakı üçün uşaq kitabxanalarında **"Biz sizinləyik!"** adlı tədbirin keçirilməsi üçün Könüllü dəstəsinin yaradılması məqsədəuyğundur. Bunun üçün Könüllülər aktiv araşdırma aparırlar: məktəblilər müharibə veteranları ilə görüşür, xatirələrini, o illərin sənədlərini, foto və video materiallarını toplayırlar. Beləliklə, "Biz sizinləyik!" heyətinin könüllüləri toplanmış materiallardan ***kitabxana qəzeti*** də nəşr edə bilərlər. Bu tədbirin təşkili zamanı könüllülər kitabxananın fəaliyyətləri, ədəbi yenilikləri, veteranlara təbrikləri və könüllülərin özləri haqqında olan məlumatları elektron məlumat bazaları hazırlayır və disklərə yazırlar.

**Təşəbbüslü könüllülər mədəni və istirahət tədbirlərində**: Yəni könüllülər tədbirlərin, müzakirələrin, teatr tamaşalarının təşkilində iştirak edə bilərlər.

**Könüllülərin vətənpərvərlik aksiyalarında** iştirakı da məqsədəuyğundur. Onlar kitabxanaya gələn oxucularla birlikdə Böyük Vətən Müharibəsi veteranlarını, Qarabağ müharibəsi iştirakçılarını, şəhid ailələrini Müstəqillik Günü, Silahlı Qüvvələr Günü, Qələbə Günü, Qocalar Günü münasibətilə baş çəkib təbrik edirlər.

Fövqəladə, Orijinal, Yaradıcı, Fəal, Unikal yeniyetmələr olan könüllülər uşaqlar, valideynlər üçün mədəni, maarifləndirici tədbirlərdə iştirak edib, videoçarxlar, kitab icmalları hazırlayıb, aparıcı, müsabiqələrin münsiflər heyətinin üzvləri kimi də çıxış edə bilərlər.




Uşaq və yeniyetmələrin intellektual inkişafında kitabların rolunu qeyd etmək, istedadlı uşaqları üzə çıxarmaq və onlara dəstək olmaq məqsədilə kitabxanalarda könüllülərin iştirakı ilə "Uğurun işığında" adlı müsabiqə də təşkil etmək olar. Belə tədbirlərə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının da iştirakı ilə MDB ölkələri arasında keçirilən Beynəlxalq Ədəbiyyat müsabiqəsini nümunə göstərə bilərik. Bu müsabiqənin qalibləri - kitabxanamızın fəal üzvlərinin Ayla Məlikzadə və Sahib Fətiyevin əsərlərinin yer aldığı "Nağıllarla səyahət", 6 şagirdin birgə qələmə aldığı "Qorxulu meşə" və Elgün Eyyubovun dedektiv janrda yazdığı "Gizli şahid" kitabları hal hazırda oxucuların sevərək oxuduğu ədəbiyyatlar sırasındadır.

Kitabxanalarda könüllü oxucuların iştirakı ilə **“Mənim əl işlərim mütaliə qəhrəmanlarımdır”** adlı sərginin təşkili də məqsədəuyğundur. Nümunə olaraq F.Köçərli adına Respublika Uşaq Kitabxanasında könüllü- fəal oxucuların hazırladıqları əl işləri ilə sizi tanış edirik.






Kitabxanalar əsasında sağlam həyat tərzinin təbliği, ətraf mühitin qorunması və antisosial hadisələrin qarşısının alınmasına yönəlmiş müxtəlif sosial proqramlar həyata keçirilir. Bu işdə gənc könüllülərin kitabxanalara fəal köməkçi olmaları vacibdir.

Gənc könüllülər kitabxanada gənclər arasında narkomaniya və siqaretin qarşısının alınması məqsədilə də fəaliyyət göstərə bilərlər. **“Narkomaniyaya yox deyək!” layihəsi** çərçivəsində təşkil olunan tədbirdə təlimlər və rol oyunları köməyi ilə könüllülər narkomaniya problemləri barədə oxuculara məlumat verib, onlarla fəal həyat mövqeyi qurmağa çalışmalıdırlar.



Təşkilatçılar hesab edirlər ki, bu cür hərəkətlərin effektivliyinin sirri həmyaşıdların sözünün bəzən ağsaqqalların əxlaqından daha inandırıcı və təsirli olmasıdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının həyata

keçirdiyi tədbirin nümunəsini metodik köməklik üçün sizə təqdim edirik:

Tədbirin keçirilməsində əsas məqsəd gənc və yeniyetmələri narkomaniya ilə bağlı maarifləndirmək idi. Tədbir zamanı könüllü tələbələrin hazırladıqları narkotik vasitələrin törətdiyi fəsadları əks etdirən video material izləndi. Könüllü tələbələr Asif Kəngərlinin "Bəla" pyesini səhnələşdirib iştirakçılara təqdim etdilər. Daha sonra uzun illər narkomaniyanın yaratdığı fəsadlardan əziyyət çəkən xəstələrin sağlam həyata qaytarmaq istiqamətində böyük əməyi və təcrübəsi olan narkoloq Asif Kəngərli öz çıxışında bu bəlanın insanları sağlam həyatdan təcrid edərək ölümə məhkum etdiyini və məlumatlı insanları bu yola yönləndirməyin çətin olduğunu vurğuladı. İştirakçıların müxtəlif suallarını cavablandıran mütəxəssis zərərli vərdişlər sırasında narkotik vasitələrlə yanaşı, spirtli içki və siqaretin də olduğunu və bu bəlalardan uzaq olmağı hər kəsə məsləhət verdi.

Könüllülər ili çərçivəsində Uşaq kitabxanalarında könüllülər F.Köçərlinin yubileyi münasibətilə **"Köçərli həftəsi"** başlığı altında tədbirlər də hazırlaya bilərlər. Bu tədbirdə kiçik, orta yaşlı, yuxarı sinif şagirdləri, ali təhsil müəssisələrinin müəllim və şagird kollektivinin könüllüləri iştirak edə bilərlər. Tədbiri keçirmək üçün kitabxana bağçalarla, məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir.

**"Köçərli həftəsi"**nin I günü yuxarı yaş qrup oxucular sevimli pedaqoqumuz F.Köçərli haqqında maraqlı məruzələr hazırlayır. Ən yaxşı hazırlanmış məruzə münsiflər tərəfindən qiymətləndirilir. II gün könüllü məktəbli oxucular ucadan oxu, səhərciklər təqdim edirlər. III günü "Balalara hədiyyə" kitabında verilmiş oyunlar könüllü oxucular arasında təşkil

olunur. IV günü yubilyarla bağlı sual-cavab, test sorğuları keçirilir. Sorğuda fərqlənən oxucular mükafatlandırılır. V gün rəsm və tapmaca müsabiqəsi təşkil olunur. VI gün yubilyara həsr olunmuş ədəbi-bədii gecə ilə “Köçərli həftəsi”nə yekun vurulur. Qeyd edim ki, “Köçərli həftəsi”nin hər bir günündə kitabxanaçı tədbirdən sonra oxucuları yubilyara həsr olunmuş sərgiyə baxmağa və kitabxanaya ekskursiyaya dəvət etsə daha yaxşı olar.

Kitabxanalarda **Qrant müsabiqələri, xüsusi layihə, tədbir və düşərgələr yolu ilə könüllülüyün təşviqi** prosesinin aparılması da məqsədəuyğundur.



Uşaq kitabxanalarında “Xeyirxahlıq yeganə libasdır ki, heç vaxt köhnəlmir” adlı **xeyriyyə aksiyası** keçirmək də məqsədəuyğundur. Bu təşviqatın məqsədi uşaq evlərində yetim uşaqlar üçün vəsait və hədiyyə toplamaqdır. Bu işdə tələbələrin köməkliyi ola bilər. Bu məqsədlə kitabxana işçiləri könüllülər üçün ictimai işdə lazımi bacarıqların formalaşdırılması ilə bağlı təlim seminarları təşkil edir. Kitabxana mütəxəssisləri hesab edirlər ki, bu cür hərəkətlərin iki məqsədi var: **uşaqlara real yardım** və **ehtiyacı olanlara pulsuz yardım** ideyasının yayılması.

Gənc oxucularla “Könüllülər ili” çərçivəsində kitabxanalarda bir sıra tədbirlər təşkil edilə bilər. Məsələn,

F.Köçərli adına RUK-nın Gənclər Günü münasibətilə gənc könüllülərlə hazırladığı tədbirin nümunəsini sizə təqdim edirik:



Fevralın 2-də, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında “İqtisadçı Tələbələrə Dəstək” İctimai Birliyi və 3 saylı Bakı “ASAN xidmət” mərkəzinin tərəfdaşlığı ilə 2 Fevral Azərbaycan Gəncləri Gününə həsr olunmuş “Gənclər Gələcəyimizin Qarantıdır” adlı dəyirmi masa keçirildi. Tədbirdə 2020-ci il Könüllülər İli ilə əlaqədar “Könüllülər və kitabxana – Yeni İmkanlar Məkanı” layihəsi çərçivəsində kitabxanada təşkil olunacaq Könüllülər qrupuyla bağlı fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, “Könüllülər və kitabxana – Yeni İmkanlar Məkanı” layihəsinin əsas məqsədi uşaq və yeniyetmələr arasında mütaliənin təbliği istiqamətində könüllülərin kitabxanaya cəlb edilməsi, könüllülər qrupunun yaradılmasıdır.

Layihə qarşısında duran əsas vəzifə:

*Gənclər arasında kitab və mütaliənin populyarlaşdırılması;

*İctimaiyyətin fikrini kitaba və mütaliəyə yönəltməklə cəmiyyətdə kitabxanaların nüfuzunu artırmaq;

*Könüllülərlə birlikdə aksiyalar keçirməklə oxucu fəaliyyətini stimullaşdırmaq;

*Yeniyetmə və gəncləri kitabxanada keçirilən tədbirlərdə aktiv olmaqla fəal iştiraka cəlb etməkdir.

Xeyirxahlıq mövzusunda keçiriləcək tədbirlərə metodik köməklik məqsədilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 14 fevral Beynəlxalq Kitab Bağışlama Günü ilə






əlaqədar həyata keçirdiyi tədbirin nümunəsini sizə təqdim edirik:

Fevralın 14-də, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə 14 fevral – Beynəlxalq Kitab Bağışlama Günü ilə əlaqədar YAŞA Mərkəzində “Kitabla sevinək – Kitabla yaşayaq” adlı tədbir keçirildi. Tədbirin keçirilməsində əsas məqsəd, insanların asudə vaxtlarını maraqlı təşkil etmək, onları daha aktiv həyata cəlb etməklə kitab və mütaliəyə marağı artırmaq idi. Tədbir “Kitabxana və Könüllülər - Yeni İmkanlar Məkanı” layihəsi çərçivəsində reallaşdı. Sonda, kitabxana tərəfindən 150-dən çox kitab və jurnallar YAŞA Mərkəzinə hədiyyə edildi.

Novruz bayramı ərəfəsində kitabxanalarda könüllülərin iştirakı ilə Sərhəd bilməyən incəsənət layihəsi çərçivəsində **“Milli geyimlər və folklor”** adlı virtual görüşlərin təşkili də məqsədəuyğundur. Tədbir zamanı Azərbaycanın milli geyimlərinin tarixi və Qarabağ xalçaları haqqında geniş məlumat və görüntünü əks etdirən video-material təqdim edilir. Həmçinin Azərbaycanlı məktəblilər, Azərbaycanın milli rəqslərindən olan “Yallı”- nın yaranma tarixi və “Qarabağ Yallısı” adlı maraqlı rəqs kompozisiya ilə, “Aşıq yaradıcılığı” barədə məlumat verib aşıq sənətinin ən gözəl nümünələrini ifa edirlər. Görüş çərçivəsində, məktəblilər Azərbaycanın ənənəvi baş örtüyü sayılan “Kəlağayı” və folklorun ən geniş janrlarından biri “Bayatılar” haqqında geniş məlumatla çıxış edib, folklorumuzu yüksək səviyyədə nümayiş etdirirlər. Novruz bayramı ərəfəsində keçirilən tədbirin əsas məqsədi, ölkə hüdudlarından kənardakı uşaq kitabxanaları ilə sıx əməkdaşlıq etməklə uşaqlara yeni dostlar qazandırmaq və hər

iki ölkənin milli geyim və folkloru haqqında oxucuları məlumatlandırmaqdır.



İllərdən bəri xalqın təfəkkür, yaşayış tərzində mövcud olmuş, formalaşmış və daim yeni əlamətlərlə zənginləşməsi, xalqın milli dəyərləri kimi bu ideyaların xalq yaradıcılığında və bədii əsərlərdə də öz əksini tapması heç də təsadüfi deyil. Xeyirxahlıq, hamıya yaxşlıq hissi xalqımızın ayrılmaz və özünəməxsus xüsusiyyətidir. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşadıb. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının xeyirxahlıqla bağlı həyata keçirdiyi tədbirin nümunəsini sizə təqdim edirik:




Könüllülər ili çərçivəsində F.Köçərli adına Respublika Uşaq Kitabxanası və C.Hacıyev adına 3 nömrəli onbirillik musiqi məktəbinin təşkilatçılığı ilə Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 və 5 nömrəli Xüsusi İnternat Məktəbinin şagirdlərinin iştirakı ilə 17 fevral – Beynəlxalq Təmənnasız

Xeyirxahlıq İfadəsi Günü münasibətilə Beynəlxalq Muğam Mərkəzində **“Yer üzünün günəşidir – xeyirxahlıq!”** adlı tədbir keçirildi. F.Köçərli adına Respublika Uşaq Kitabxanası respublikamızda bütün uşaqların, o cümlədən, sağlamlıq imkanları məhdud uşaqlar da daxil olmaqla yeni təhsil sisteminə uyğun şəkildə ədəbiyyatın kompleks təbliğini həyata keçirir. Tədbirin keçirilməsində əsas məqsəd, yüksək insani keyfiyyətlərdən olan xeyirxahlığın gələcək nəsillərə təlqin etməklə cəmiyyətdə uşaqların humanist ruhda böyüməsinə təkan verməkdir. Tədbirdə, Mədəniyyət Nazirliyindən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İctimai Birliyinin (DAMM İB) vitse-prezidenti Hacı Quliyev, Gəncliyə Yardım Fondunun prezidenti Ahmet Tecim, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən, Təhsil Nazirliyindən nümayəndələr, uşaq yazarlarından Sevinc Nuruqızı, Gülzar İbrahimova, Elvira Məmmədova, Mehriban Nağıyeva, Qəşəm İsabəyli və.s qonaqlar iştirak edirdi.

**Kitabxanalarda Könüllülərin təşkilatçılığı ilə bilik yarışmasının təşkili də məqsədəuyğundur.**



Kitabxanalarda **“Ekologiya və biz”** **və ya** **“Ekologiya könüllülərinə sən də qoşul”** başlığı altında könüllülərin iştirakı ilə EKO klub yaradılması da çox  məqsədəuyğundur. Bu klubun yaradılması məktəblilərin müxtəlif ekoloji biliklərə yiyələnməyə və ekoloji mədəniyyət səviyyəsinin yüksəldilməsinə müsbət şərait yaradır. Bu mövzuda təşkil olunmuş interaktiv təlim sessiyaları, tədbirlər, məktəblilər üçün məşğələlər yeniyetmələrin ekologiya sahəsində biliklər əldə etməsinə şərait yaradır. Gənc könüllülər bu proseslər ərəfəsində çoxlu quş evləri düzəldib, parklara asır, ekoloji aksiyalarda iştirak edirlər.

Könüllülər ili ilə əlaqədar kitabxanalarda gənc könüllülərin iştirakı ilə **“Hərəyə bir ağac əkək”** aksiyasını yerinə yetirmək də çox təqdirəlayiq olardı.  Bu işdə daha fəal iştirak edən könüllüyə kitabxana tərəfindən sertifikat verilir. Həmçinin uşaq kitabxanalarında evsiz heyvanlar üçün könüllülərin iştirakı ilə qəbul mərkəzi açılması, bu mövzuda təşviqat elanlarının təşkili, onların lazım olan bölgələrə yapışdırılması prosesinin həyata keçirilməsi də məqsədəuyğundur. Kitabxanalarda Ekologiya, təbiətin qorunması mövzusunda uşaqların rəsm sərgilərinin, əl işlərinin təşkili də təqdirə layiq olardı.



Kitabxanalarda könüllülərin iştirakı ilə **"Könüllülük həftəsi"** çərçivəsində ölkəmizin bütün şəhər və rayonlarında ekoloji, sosial və mədəni tədbirlərin, xüsusi konsert-əyləncə proqramının, Azərbaycan könüllülərinin həmrəylik düşərgəsinin və digər tədbirlərin təşkili məqsədəuyğundur.

Qarabağ cəbhəsindən gələn məktubların toplanması, "Yaxşılıq, insanları bir-birinə bağlayan qızıl zəncirdir" adlı tədbirlərin təşkili, "Dünyanı xeyirxahlıq xilas edəcək" adlı stendlərin hazırlanması, "İstedadlar axtarırıq" kimi tədbirlərin köməyi ilə istedadlı uşaq və gənclərin dəstəklənməsi, "Fövqəladə hallarda könüllülər" mövzusunda mühazirənin təşkili və s.

Kitabxanalarda "Xeyir işlər görməyə çalışaq" adlı könüllü hərəkatı da təşkil etmək olar. Bu hərəkatda 30 nəfər gənc (14 yaşdan 30 yaşa qədər) toplanır, yaşlı insanlara və əlil insanlara kömək etmək istəyi ilə birləşir. Könüllülər qocalar evlərində işləyir, orada kitabxana xidmətləri göstərir, yardım kolleksiyalarında və digər qısamüddətli kitabxana layihələrində iştirak edirlər.

**Könüllüləri necə cəlb etmək olar?**

- Könüllülərə ehtiyac barədə məlumat kitabxanaya gələn qonaqlar üçün olmalıdır: məlumat stendləri, broşuralar, kitabxananın veb saytında və sosial şəbəkələrdə (tələb olunur!);

- Kitabxanada potensial könüllülərlə görüşlər təşkil etmək;

- Kütləvi tədbirlərdə, konfranslarda iştirak edənlərə könüllülərə kitabxananın ehtiyacları barədə məlumat verin;

- Radio, televiziya, qəzet və jurnallarda reklamlar vasitəsilə, ictimai yerlərdə, nəqliyyatda;

- Kitabxanada reklam yerləşdirmək müqabilində könüllülər haqqında məlumat yerləşdirmək üçün çox sayda insanın olduğu təşkilatları dəvət etmək;

- Əhalinin müəyyən qrupları ilə işləyən əlaqə qurumları (gənclər mərkəzi, yaşlı insanlarla işləmə mərkəzləri və s.).

Könüllülərin seçimində müsahibə, anket, müşahidə, sınaq kimi metodlardan istifadə olunur. Seçim zamanı bunu istəyən hər kəs deyil, yalnız həqiqətən ehtiyacı olanları seçmək lazımdır. Könüllülər haqqında məlumata aşağıdakıları daxil etmək olar:

- cinsiyyət;

- yaş;

- təhsil;

- sosial status;

- peşə ixtisasları;

- iş keyfiyyətləri;

- könüllünün kitabxanada iştirak etməyə hazır olacağı boş vaxt;

- bacarıqlar;

- yaşayış yeri.

**Kim könüllü ola bilər?**

13 yaşından hər hansı bir şəxs könüllü ola bilər, ancaq istisnalar var, fəal oxucular da könüllü olurlar. Bunun üçün yaş məhdudiyyəti yoxdur.

İşdə ən yaxşı şəkildə qurulmuş 4 qrup:

- Orta məktəb şagirdləri, kollec tələbələri;
- universitet tələbələri;
- psixoloqlar, müəllimlər, sosial, tibb işçiləri, sosioloqlar;
- ictimai təşkilatların işçiləri.

Potensial könüllülər ola bilər:

- qohumlar, tanışlar, dostlar;
- təlimlərin iştirakçıları;
- tədbirlər, aksiyalar çərçivəsində dəvət olunan gənclər;
- yeniyetmə və gənclər klublarının qonaqları;
- kitabxana istifadəçiləri.

**Könüllü işə başlamazdan əvvəl könüllülər üçün təlim təşkil edin.**

Könüllüləri bütün kitabxana işçiləri ilə tanış etmək, təşkilatın quruluşu barədə ona məlumat vermək lazımdır. Kitabxana könüllülərlə işləmək üçün cavabdeh olmalıdır. Kitabxanada könüllülərin işinə rəhbərlik edəcək, onlara qarşı dəqiq tapşırıqlar qoyan və bütün suallarına cavab verən bir **əlaqələndirici şəxs** olmalıdır. Əlaqələndirici insanlarla

ünsiyyət qurmağı, ortaya çıxan problemlərlə məşğul olmağı və yaxşı bir psixoloq olmağı bacarmalıdır. Kitabxana işçilərinə könüllülərlə necə işləməyi öyrətmək lazım ola bilər. Könüllülərlə uğurla işləyənləri mükafatlandırmağı unutmayın. Kitabxana müdiri kitabxana işçilərini könüllülərə ehtiyac duyduğuna inandırmalı və onlara dəstək olmalıdır. Kitabxananın vəzifəsi könüllülərin işini maraqlı, faydalı işə çevirməkdir.

**Könüllülər qrupuna daim informasiya dəstəyi verilməlidir.**

Kitabxananın rəhbəri könüllülərlə görüşməli, uğurlarını qeyd etməli, perspektivləri və yeni fikirləri haqqında danışmalıdır. Ən vacibi könüllülərin xidmətlərini vaxtında tanımaq və onları təşviq etməkdir. Bunun bir çox yolu var: təşəkkür məktubu, tövsiyə rəyi, suvenirlər, yerli qəzetlərdə yazılan məqalələr, kitabxananın veb saytında təşəkkür məktubu və s.

Xarici dili bilən könüllülər kitabxana oxucularına dil öyrədirlər.

Könüllülər ili çərçivəsində **“Gənclərin regionlararası yaradıcılıq festivalı”** adlı tədbirin təşkili də məqsədəuyğundur.

Həmçinin kitabxanalarda könüllülər xüsusi qayğıya ehtiyacı olan uşaqlar arasında **"Biz istedadlıyıq!"** adlı tədbir də təşkil edə bilərlər.

`"**Oxu liderləri"** - ətraf mühitdə təsirli və etibarlı münasibətlər qura bilirlər. Həmin könüllülər xüsusi biliklərə malik olurlar və həmsöhbətləri ilə danışan zaman başa düşülən olan dil və terminlərdən istifadə edirlər. Onların bu qabiliyyətləri gənclər üçün müvafiq məsələlərin müzakirəsi zamanı rahat hiss etmələrinə imkan verir.

**"Birlikdə baxaq"** layihəsi kitabxanada xüsusi könüllülər tərəfindən həyata keçirilir: aparıcılar natiq və təlimçi kimi fəaliyyət göstərən gözdən əlil gənclərdir.

**Könüllü məsləhətləri**

**1. Könüllü proqramları planlaşdırın.**

Əvvəla, təşkilatınızın niyə könüllülərə ehtiyac duyduğuna qərar verin. Nə edəcəklər? Planlarınız və gözləntiləriniz nələrdir? Könüllüləri necə təşviq edəcəksiniz? Könüllüləri kim əlaqələndirəcək?

Yalnız kollektivinizdə yaranan bu və digər suallara cavab verdikdən sonra fəaliyyətə başlayın!

Könüllülər daha çox yaradıcılıq və yeni fikirlərin lazım olduğu yerlərdə lazımdır. Fəaliyyətlərimizi inkişaf etdirmək istəsəniz və onlara hansı işi tapşırmağa hazır olduğunuzu dəqiq bilirsinizsə, onların gəlişi ilə ortaya çıxan bütün problemlər müəssisənizin uğurlarına çevriləcəkdir.

**2. Könüllüləri cəlb edin.**

Yaşından, cinsindən və peşəsindən, sosial vəziyyətindən və şəxsi keyfiyyətlərindən asılı olmayaraq insanlar faydalı olmaq istəyirlər, yəni könüllü ola bilərlər. Bir çox faydalı qaynaqlara

sahib olan gənclərin əhatəsində olduğunuzu başa düşməlisiniz. Uşaqları işə cəlb etmək üçün bu işin məqsədlərini, mümkün nəticələrini aydın şəkildə izah etmək lazımdır.

**3. Motivasiyanı müəyyənləşdirin və yaxşı niyyət seçimini həyata keçirin**

**4. Könüllüləri səlahiyyətlilərə həvalə etmək.**

Uşaqların əksəriyyəti könüllü iş üçün təşkilata qoşularaq əlavə bilik və bacarıqlara ehtiyac duyurlar. Bu məqsədlə də mühazirələr, seminarlar, təlim proqramları təşkil edin.

Bildiyimiz kimi bu il 2020-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük dramaturq, nasir, publisist və teatr təşkilatçısı, tanınmış ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 illiyidir. Əbdürrəhim bəy Haqverdiyevin adının UNESKO-nun 2020–2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilməsi çoxəsrlik ədəbiyyatımızın parlaq siması olan ədibin mənəvi sərvətlərimizi və ali ümumbəşəri dəyərləri özündə təcəssüm etdirən humanist ruhlu yaradıcılığının lazımınca və yüksək qiymətləndirilməsinin aydın təzahürüdür. Ustad sənətkarın dramaturji irsi ölkəmizdə teatr mədəniyyətinin yüksəlişinə yol açmışdır. Onun canlı həyat lövhələri ilə son dərəcə zəngin hekayələri nəsr tariximizin ən qiymətli nümunələri sırasında xüsusi yer tutur. Bu məqsədlə Könüllülər ilində kitabxanalarda yazıçının bir-birindən dəyərli əsərləri, felyetonları, hekayələri könüllülər tərəfindən səhnələşdirilir. Bu məqsədlə könüllülər arasında bir ay müddətində rollara hazırlıq işləri yerinə yetirilir. Finalda tamaşa kitabxananın oxucularına, işçilərə

təqdim olunur. Münsiflər heyyətinə teatr xadimləri, incəsənət adamları dəvət alır. Tamaşanı ən yaxşı təqdim edən könüllü dəstə kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır. Onlara xüsusi sertifikatlar təqdim olunur.

Könüllülər ili ilə əlaqədar kitabxanalar aşağıdakı şəkildə elan hazırlayıb sayta yerləşdirə bilərlər. Nümunəni sizə təqdim edirik:

F. Köçərli adına Respublika Uşaq Kitabxanası yeniyetmə və gəncləri "Kitabxana və Könüllülər – Yeni İmkanlar Məkanı" layihəsində iştirak etməyə dəvət edir.

2020 - ci il Könüllülər ilində F.Köçərli adına Respublika Uşaq Kitabxanası "Kitabxana və Könüllülər – Yeni İmkanlar Məkanı" layihəsini həyata keçirməyə başlayır. Biz yeniyetmə və gəncləri kitabxanamızda könüllü olmağa və oxuculara xidmət göstərməkdə, kütləvi tədbirlər keçirməkdə, əlilliyi olan insanlara və yetkinlik yaşına çatmayanlara və internat məktəblərinin, sosial reabilitasiya mərkəzinin şagirdlərinə kömək etmək üçün Könüllülər qrupuna qoşulmağa dəvət edirik. Könüllünün işi həm qeyri-adi, həm də maraqlıdır.

- Kitabxana könüllüsü:
- İnformasiya ocağı, bilik mənbəyi olan kitabxanada dostlar ilə görüş yeri və yaradıcı ifadə yeri;
- Sevimli kitabxanası üçün ən qiymətli vaxtını qurban verməkdən peşman olmayan;
- Kitabxana həyatında iştirak edən fəallardan biri;
- Problem və qələbələrə biganə qalmayan;
- Təşkilatçılıq, təşəbbüskarlıq bacarığına malik.

## **“Könüllülər ili” ilə əlaqədar kitabxananın fəaliyyət planının nümunəsi**

**Sərgilər**

Kitab sərgisi “2020-ci il könüllülər ilidir” il boyu;
Sərgi - viktorina “Vətənimizlə fəxr edirik”;
“Azərbaycanda könüllülər hərəkatı” virtual kitab sərgisi;
“Bütün ürəyinizlə yaxşılıq edin!” sərgi- söhbət ;
“Könüllü olmaq şərəfdir, onlar böyük bir ürəyə sahibdirlər”;
“Xeyir işlər görməyə çalışmalıdır insan”;
Sərgi - çağırış “Könüllülük cəmiyyətin vətəndaş potensialıdır!”;
Uşaqların əl işlərindən ibarət rəsm sərgisi “Biz könüllülərik!” ;
“İsti söz yaxşı bir əməldir” sərgi-diskussiya;
Kitab sərgisi “5 dekabr – Beynəlxalq Könüllülər Günüdür”;
Sərgi - icmal “Könüllülər, cəmiyyətə fayda verir”;
Məlumat saatı “Könüllülük haqqında məlumat əldə edin”;
“Azərbaycan könüllüləri: onlar kimlərdir?”.
**Dəyirmi masa** “Yaxşılıq etməyə tələsin!” .
<u>Onlayn seminar</u>
“Gənclərin könüllü hərəkatı: sosial əhəmiyyətli layihələr”;
Təqdimat slaydı “Mən könüllüyəm!”;
Oxucularla söhbət :“İnsanlara sevinc vermək üçün insan mehriban və nəzakətli olmalıdır” ;
Məlumat bələdçisi: “Könüllülük bir həyat tərzidir!” ;
“Başqalarına kömək etmək, özümüzə kömək etməkdir”;
(Kitabxana Könüllülərinin il ərzində gördükləri işlərin fotolarından ibarət sərgi) .

**Aksiyalar**

“Kitab ən yaxşı hədiyyədir” ;

“Aprel döyüşləri! Mən xalqımla fəxr edirəm!” ;
“Gəlin şəhəri daha təmiz edək, ərazini daha da gözəlləşdirək” ;
“Könüllü olmusunuz?”;
“Sevdiyiniz kitaba ikinci bir həyat verin”;
“Uşaqlara sevinc bəxş et”;
“Könüllülər, irəli!” (Gənc oxuyanlar layihəsi çərçivəsində):
Gənclər üçün könüllülər qrupu tərəfindən tematik tədbirlərin təşkili, hazırlanması və keçirilməsi ;
“Düşün və hərəkət et!” il boyu;
Fiziki qüsurlu uşaqlar üçün nağıl saatı;
“Sizə kitab oxuya bilərəmmi?” (Beynəlxalq Uşaq Kitab Günü);
“Mənə bir nağıl danış” (Beynəlxalq Əlillər Günü ilə əlaqədar).

**Sosial layihə**
“Könüllülər bizik və bu, insanlara təmənnasız kömək etmək deməkdir!” (Kitabxanaya gələ bilməyən yaşlı oxuculara kitabxana xidmətinin təşkili);
Könüllülər qrupu diyarşünaslıq layihəsi çərçivəsində;
Məlumat axtarış yürüşü (öz yurdunun tarixinin öyrənilməsi üçün yerli sakinlərlə, o cümlədən yaşlılarla ünsiyyət);
“Mənim diyarım!” il boyu;
Sosial və maarifləndirici yürüş “Mən könüllüyəm!” (müəssisələrdə tədbirlərin keçirilməsinə kömək);

**Ekoloji yürüş (**kitabxanaya yaxın sahənin abadlaşdırılması)
“Təmiz küçə – Abad məhəllə” ;
Mədəni və əyləncəli yürüş (rayon sakinləri üçün) ;
“Salam, günəşli yay!” kitab sərgisi;
“Biz azərbaycan könüllüləriyik!”;
Ən yaxşı məhəllə könüllüsü üçün müsabiqə.

**Könüllünün ərizə-anket forması**

Adınız:_______Soyadınız:________Atanızın adı:__________

Ünvanınız:__________ Doğum tarixi:______ Yaşınız:______

Şəxsiyyət vəsiqəsinin nömrəsi:_____ Kim tərəfindən verilmişdir:_________________________________________ ______ Tel.:___________________

E-mail:______________________ Təhsiliniz haqqında məlumat:___________________________ İş yeriniz:______________ Vəzifəniz:____________________

Stajınız:_____________________________________________

Hansı sahədə könüllülük etmək istərdiniz:

• Oxuculara stasionar və qeyri stasionar xidmət;

• Əhali arasında kitabxananın fəaliyyəti barədə məlumatların yayılması və rəy sorğularının keçirilməsinə kömək;

• Kitabxananın fəaliyyəti və iş rejimi haqqında məlumat kitabçaları, vizit kartlarının paylanılması;

• Sosial aksiyaların (sağlam həyat tərzinin, tolerantlığın təbliğinə yönəlmiş seminarlar, ekoloji tədbirlər və s.) keçirilməsində iştirak etmək;

• Kompüter texnologiyalarından istifadə də çətinlik çəkən yaşlı oxucularla təlimlərin keçirilməsində iştirak;

• Digərləri: Dil bilikləriniz haqqında məlumat:

Azərbaycan Rus İngilis

Digərləri___________________________________________

Həftənin hansı günləri işləmək istərdiniz? - Bazar ertəsi, Çərşənbə axşamı, Çərşənbə, Cümə axşamı, Cümə, Şənbə.

Günün hansı vaxtlarını işləmək istərdiniz:

## Ədəbiyyat siyahısı

İnternetdə: http://anl.az/down/Kitabxana.ve.konulluler.pdf

**2020-ci il Azərbaycanda** "Könüllülər ili" elan edilib // Mədəniyyət. - 2020. - 10 yanvar. - № 1/2. - S. 1.

**Abdullayeva N.** ASAN Kadr sayəsində 1362 könüllü işlə təmin olunub // Palitra. - 2020. - 29 yanvar. - № 9. - S. 7.

**Abdullayeva S.** Gəncliyin potensialından səmərəli istifadə imkanı : Könüllülər ili - 2020 // İki sahil. - 2020. - 8 yanvar. - № 1. - S. 5.

**Adilov C.** Könüllülər hərəkatı keyfiyyətcə yeni inkişaf mərhələsinə daxil olur // İki sahil. - 2020. - 11 yanvar. - № 4. - S. 11.

**Adilov C.** Könüllülər hərəkatı yeni mərhələyə qədəm qoyur // Xalq qəzeti. - 2020. - 12 yanvar. - № 5. - S. 7.

**Azərbaycan Respublikasında 2020-ci** ilin "Könüllülər ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (30 dekabr 2019-cu il) // Xalq qəzeti. - 2019. - 31 dekabr. - № 293. - S. 3 ; Respublika. - 2019. - 31 dekabr. - № 292. - S. 1 ; Azərbaycan. - 2019. - 31 dekabr. - № 292. - S. 1 ; Azərbaycan Müəllimi. - 2020. - 10 yanvar. - № 1. - S. 2.

**Babayeva M.** Könüllülük ümummilli hərəkata çevrilib // İki sahil. - 2020. - 9 yanvar. - № 2. - S. 7.

**Daşsalahlı R.** Gəlin bir olaq : könüllülər qarşısına böyük hədəflər qoyub // Azərbaycan Müəllimi. - 2020. - 31 yanvar. - № 4. - S. 1, 4.

**Əkbərov C.** Gənclərin potensialının üzə çıxmasında həlledici amil : könüllülər hərəkatı // İki sahil. - 2020. - 12 fevral. - № 28. - S. 14.

**Ələddinqızı N.** 2020-ci "Könüllülər ili" elan edildi // Səs. - 2020. - 8 yanvar. - № 1. - S. 16.

**Əliqızı Ş.** Könüllülük hərəkatı gənclərin yeni inkişaf modeli kimi // İki sahil. - 2020. - 9 yanvar. - № 2. - S. 11.

**Əliqızı Ş.** Seymur Orucov: Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıb : könüllülər ili - 2020 // İki sahil. - 2020. - 10 yanvar. - № 3. - S. 9.

**Həbibbəyli Ə.** Könüllülük gəncliyin sabaha açılan pəncərəsidir : 2020-ci il "Könüllülər ili"dir // Azərbaycan : qəzet. - 2020. - 28 yanvar. - № 17. - S. 1, 4.

**Həsənova Ş.** Gənclərin ölkəyə könüllü töhfəsi // Xalq qəzeti. - 2020. - 20 fevral. - № 38. - S. 6.

**Hüseynzadə F.** Könüllülər ili elan olunması gənclər üçün yeni bir şansdır : Asim Vəliyev: "İnanıram ki, bu il gənclərin düşüncəsində silinməz iz buraxacaq" // Palitra. - 2020. - 7 fevral. - № 13. - S. 6.

**İlyasov V.** Könüllülük gənclərin karyerasına yol açır // İki sahil. - 2020. - 11 fevral. - № 27. - S. 14.

**İlyasov V.** Könüllülük və xeyirxahlıq xalqımızın milli xüsusiyyətidir : könüllülər ili - 2020 // İki sahil. - 2020. - 10 yanvar. - № 3. - S. 8.

**İsmayılqızı X.** Könüllülər hərəkatı bizdə "ASAN xidmət"dən başlayıb : 2020-ci ilin "Könüllülər ili" elan olunması gənclərin cəmiyyətdə daha fəal qüvvə kimi özünü təqdim etmək imkanlarını genişləndirib // İki sahil. - 2020. - 11 yanvar. - № 4. - S. 6.

**Könüllülər böyük missiyadır** // Azərbaycan. - 2020. - 2 fevral. - № 22. - S. 7.

**Könüllülər fəaliyyətinə həsr** olunmuş himn hazırlanacaq // Kaspi. - 2020. - 5 fevral. - № 20. - S. 3.

**Könüllülər hərtərəfli dövlət** qayğısı ilə əhatə olunublar // İki sahil. - 2020. - 8 fevral. - № 25. - S. 4.

**Könüllülər ili çərçivəsində** Ədliyyə Nazirliyində gənclərlə görüş // Xalq qəzeti. - 2020. - 2 fevral. - № 22. - S. 7.

**Mədəniyyət könüllülər regional** konfransları // Mədəniyyət. - 2020. - 5 fevral. - № 9. - S. 4.

**Mirələmov H.** 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsinin böyük rəmzi mənası var // Yeni Azərbaycan. - 2020. - 18 yanvar. - № 9. - S. 6.

**Muradlı X.** İlahiyyat İnstitutunun tələbələri də könüllülər hərəkatına qoşulacaq : 2020-ci il "Könüllülər ili"dir // Azərbaycan. - 2020. - 10 yanvar. - № 3. - S. 4.

**Muradlı X.** İşimizi ASANlaşdıran könül adamları // Azərbaycan. - 2020. - 2 fevral. - № 22. - S. 6.

**Mustafayev O.** Könüllülüyün təntənəsi ili : azərbaycan gəncləri yüksək etimadı doğrultmaq əzmindədir // Azərbaycan Müəllimi. - 2020. - 17 yanvar. - № 2. - S. 4.

**Nərimanoğlu M.** Hər kəsin dostu : 2020-ci il "Könüllülər ili"dir // Azərbaycan : qəzet. - 2020. - 9 yanvar. - № 2. - S. 1, 4.

**Pərvanə.** ASAN dan başlayan yol - Azərbaycanda Könüllülər ili // 525-ci qəzet. - 2020. - 8 yanvar. - № 1. - S. 6.

**Pərvanə.** Azərbaycan dövləti Könüllülər hərəkatına böyük önəm verir // 525-ci qəzet. - 2020. - 15 fevral. - № 18. - S. 5.

**Qələndərli N.** Azərbaycan dövləti Könüllülər hərəkatına çox böyük önəm verir : Prezident İlham Əliyev: Azərbaycan könüllüləri həm vətənpərvərdirlər, həm biliklidirlər, həm istedadlıdırlar, həm də Azərbaycan gəncliyini və gənclərin istedadını təcəssüm etdirirlər // Yeni Azərbaycan. - 2020. - 15 fevral. - № 31. - S. 4.

**Qələndərli N.** Azərbaycanda könüllülər hərəkatı geniş vüsət alıb : Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə 2020-ci ilin "Könüllülər ili" elan edilməsi gəncliyin potensialından respublikamızın dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək baxımından mühüm əhəmiyyət kəsb edir // Yeni Azərbaycan. - 2020. - 9 yanvar. - № 2. - S. 2.

**Rasimqızı R.** Könüllülük həm də vətənpərvərlik məktəbidir // İki sahil. - 2020. - 17 yanvar. - № 8. - S. 10.

**Rasimqızı R.** Könüllülük hərəkatına yüksək dəyər : Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2020-ci ilin ölkəmizdə "Könüllülər İli" elan edilməsi belə dəyərləndirilir // İki sahil. - 2020. - 10 yanvar. - № 3. - S. 14.

**Rövşən.** Könüllülər ili - perspektivlik, uğur və sağlam gələcək üçün : Prezident İlham Əliyevin bu qərarı gənclərin həyatlarına stimul verir / Rövşən // Səs. - 2020. - 16 yanvar. - № 7. - S. 10.

**Seyidzadə M.** Azərbaycanda könüllülük hərəkatı // Sportsman. - 2019. - № 121.

**Tağıyev A.** Könüllülük - sevgi, vətənpərvərlik və xeyirxahlıqdan doğan hərəkat // Xalq qəzeti. - 2020. - 9 fevral. - № 28. - S. 7.

**Tağıyev T.** Könüllülərimiz müxtəlif dövlət orqanlarında işlə təmin olunublar : Sevinc İsgəndərova: "AzTU-nun tələbələri "Könüllülər ili"nə dəstək olaraq ölkədə keçirilən beynəlxalq tədbirlərdə könüllülük fəaliyyətlərini davam etdirəcəklər" // Palitra. - 2020. - 28 yanvar. - № 8. - S. 5.

**Tural.** Könüllü gömrükçülər Mərkəzi Gömrük Hospitalında uğurla fəaliyyət göstəriblər // Palitra. - 2020. - 29 yanvar. - № 9. - S. 6.

**Tural.** Könüllü hərəkatı çərçivəsində minlərlə gənc bilik və bacarıqlarını artırmaq imkanı əldə edib və işlə təmin olunub // Palitra. - 2020. - 5 fevral. - № 12. - S. 9.

**Vahidoğlu O.** Könüllülük cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır // İki sahil. - 2020. - 15 yanvar. - № 6. - S. 10.

**Vüqar Rəhimzadə: Möhtəşəm** Prezidentimiz İlham Əliyevin 2020-ci ili "Könüllülər İli" elan etməsi gənclərin qoşulduqları fəaliyyətə yeni nəfəs gətirəcək // İki sahil. - 2020. - 9 yanvar. - № 2. - S. 7.

# Biz Azərbaycan könüllüləriyik

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 07
Çapa imzalanmışdır: 10.03.2020
Tirajı:100
Pulsuz